Azadlıq Radiosu

DÜNYA

# Zelenski: Belarus sərhəddə hərbi infrastruktur qurur – Lukaşenkodan xəbərdarlıq

21 dəqiqə öncə




Zelenski, Lukaşenko, Putin

Ukrayna prezidenti **Volodimir Zelenski** bildirib ki, Rusiyanın təsiri altında olan Belarus müharibənin miqyasını genişləndirmək üçün infrastruktur hazırlayır. Zelenskinin sözlərinə görə, Ukrayna Xarici Kəşfiyyat Xidməti sərhəd boyunca yeni yolların, həmçinin sursat və yanacaq-sürtgü materialları anbarlarının inşası barədə məlumat əldə edib. Ukrayna lideri Kiyevin Minskə artıq "lazımi siqnalları" ötürdüyünü bildirərək Belarus hakimiyyətini müharibənin uzanmasına xidmət edən addımlardan çəkinməyə çağırıb.

Zelenski daha əvvəl də Belarusda hərbi fəallığın artdığını bəyan edərək Rusiyanın Minski müharibəyə sürükləmək istədiyini vurğulamışdı. "The Wall Street Journal" qəzeti

isə öz mənbələrinə istinadən Kremlin Belarus üzərində təzyiqləri artırdığını və onun döyüşlərdə daha fəal iştirakına çalışdığını yazıb.

Öz növbəsində, **Aleksandr Lukaşenko** bu yaxınlarda Minskdə Ukrayna nümayəndə heyəti ilə görüşdüyünü açıqlayıb. Lukaşenkonun sözlərinə görə, o, Zelenskiyə çatdırmağı xahiş edib ki, **Belarusu müharibəyə sürükləmək cəhdi "müharibənin keyfiyyətini dərhal dəyişəcək"**. Lukaşenko Kiyevdən bunu anladıqlarına dair cavab aldığını bildirir.

Belarus lideri əlavə edib ki, Minsk Ukrayna ilə müharibəyə girmək istəmir və bu münaqişəyə sürüklənə bilməz, amma "hər bir halda Rusiyanın yanında duracaq".




Belarus ordusunun təlimləri. 2025

## Belarus səfərbərlik təlimlərinə başlayıb

Belarusda hərbi komissarlıqların iştirakı ilə səfərbərlik təlimləri keçirilir. Ölkənin Müdafiə Nazirliyinin verdiyi məlumata görə, tədbirlər iyunun 17-dən 26-dək Polşa və Litva ilə həmsərhəd olan Qrodno vilayətində təşkil olunub.

Rəsmi açıqlamaya əsasən, təlimlər zamanı vətəndaşların və nəqliyyat vasitələrinin səfərbər edilməsi prosesləri yoxlanılır. Aşmyanı rayonunda isə iyunun 20-dən iyulun 2-dək hərbi vəzifəlilər uçot məlumatlarının dəqiqləşdirilməsi və nəzarət toplanışı üçün hərbi komissarlıqlara çağırılırlar. Ümumilikdə təxminən iki min nəfərə bildiriş göndərilməsi nəzərdə tutulur.

Belarus Müdafiə Nazirliyi təlimlərin planlı xarakter daşıdığını vurğulayıb. Hərbi toplanışlara cəlb edilən ehtiyatda olan hərbi qulluqçular silah və texnika ilə rəftar bacarıqlarını yeniləməli, həmçinin hərbi komissarlıqların tərkibində müvafiq tapşırıqları icra etməlidirlər.

Bununla yanaşı, "The Wall Street Journal" ötən günlər məlumat yayıb ki, Rusiya prezidenti **Vladimir Putin** Aleksandr Lukaşenkoya təzyiqləri artırıb və Minskdən Ukraynaya qarşı müharibədə Moskvaya daha fəal dəstək vermesini tələb edir. Qəzetin mənbələrinə görə, rədd cavabı veriləcəyi halda Kreml Belarusa maliyyə dəstəyini azaltmaqla hədələyir.

Nəşrin həmsöhbətləri həmçinin iddia edirlər ki, Moskva ilə Minsk arasında müzakirə olunan məsələlər sırasında təkcə Ukraynaya qarşı addımlar deyil, həm də NATO ölkələrinə qarşı mümkün birgə əməliyyatlar da yer alır.

"The Wall Street Journal"ın yaydığı bu məlumatların rəsmi təsdiqi yoxdur. Rusiya və Belarus rəsmiləri sözügedən nəşrin materialını şərh etməyiblər.

## Buna da bax:


Rubio: 'Ankoricdə Ukrayna barədə Rusiya ilə razılaşma olmayıb'

Aİ ombudsmanı Zelenski ilə qapalı yazışmalara görə fon der Lyayeni araşdırır

'Reuters': Rusiya Qazaxıstandan benzin idxalı ilə bağlı danışıqlar aparır



AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur